# AHİK-də Beynəlxalq Əmək Təşkilatı nümayəndəsi ilə görüş



***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə işgüzar səfərdə olan Beynəlxalq Əmək Təşkilatının (BƏT) Layiqli Əməyə Texniki Dəstək Qrupu və Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Ofisinin direktoru Olqa Kulayevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə AHİK-lə BƏT arasında qarşılıqlı-faydalı əməkdaşlıqdan geniş bəhs olunub.***

AHİK sədri işğal zamanı Ermənistanın Şərqi Zəngəzurda və Qarabağda törətdiyi vandal əməllərindən söz açaraq bildirib ki, uzun illər torpaqlarımız işğal altında qalsa da, buna etiraz olaraq əsas aparıcı beynəlxalq təşkilatlardan heç bir səs gəlmədi, ikili standartlardan çıxış etdilər: "Təbii ki, bu da bizdə təəssüf və təəccüb doğururdu. Artıq münaqişə başa çatıb. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işləri aparılır, bir sıra layihələr yekunlaşıb. Yaxın gələcəkdə dövlətimiz tərəfindən sakinlərin öz yurdlarına qayıtması təmin ediləcək. Bütün bu işləri Azərbaycan özü həyata keçirir".

Sonra AHİK sədri "2016–2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" ilə bağlı Azərbaycan həmkarlar ittifaqları tərəfindən görülmüş işlər və həyata keçirilmiş layihələr barədə ətraflı məlumat verib. S.Möhbalıyev BƏT-lə əməkdaşlıq çərçivəsində qarşıda duran vəzifələrdən və görüləcək işlərdən bəhs edib. O, yeni hazırlanacaq 2022–2026-cı illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramında qeyri-rəsmi məşğulluğun qarşısının alınması, məşğulluq xidmətlərinin çeşdinin və keyfiyyətinin yüksəldilməsi, sosial təminat sistemində ünvanlılıq və şəffaflığın tam təmin olunması, özünəməşğulluq proqramının genişləndirilməsi istiqamətində islahatların aparılması, sosial dialoqun inkişaf etdirilməsi kimi məsələlərin qeyd olunmasının vacibliyini diqqətə çatdırıb.

Səmimi qəbula görə təşəkkür edən O.Kulayeva Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, burada iştirak etdiyi tədbirləri, keçirdiyi görüşləri məhsuldar və səmərəli hesab edib.

***T.AYDINOĞLU, "Xalq qəzeti"***